Voyçex Bartkoviçin Qəbələyə səfəri

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Polşa Respublikasındakı

Səfirliyi və "Həyat sözü" Xristian dini icmasının birgə təşkilatçılığı ilə Varşava Böyük Kahinlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti 7-14 sentyabr tarixlərində Azərbaycana səfər etmişdir. Azərbaycandakı dini həmrəylik, tolerantlıq mühiti, xristian, eləcə də alban dini məbədləri, polyak mirası və icması ilə tanışlıq məqsədilə ölkəmizə gələn nümayəndə heyəti 9 sentyabr 2022-ci il tarixdə Qəbələ rayonuna səfəri çərçivəsində Azərbaycanın Alban-Udi dini icmasının sədri Robert Mobili ilə görüşmüş, Nic qəsəbəsində yerləşən qədim Alban abidələrini ziyarət etmiş və Qəbələ şəhərinin görməli, tarixi yerləri ilə tanış olmuşlar.

Azərbaycan qadınının fəaliyyətinə aid seminar keçirilmişdir

Qəbələdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Qəbələ Rayon İcra Hakimiyyətinin, rayonun aktiv qadınlarının, təhsil işçiləri və gənclərin iştirak etdiyi seminarın keçirilməsində məqsəd dini maa-

kimiyyətinin dəstəyi ilə "Azərbaycan qadınının tolerant və mütərəqqi cəmiyyətin formalaşmasında rolu" mövzusunda iki günlük seminar keçirilmişdir. Rayon icra hakimiyyəti nümayəndələrinin, rayonun aktiv qadınlarının, təhsil işçiləri və gənclərin iştirak etdiyi seminarın keçirilməsində məqsəd dini mərifçilik işinin həyata keçirilməsində, dini radikalizm və xurafatla mübarizədə qadınların fəal iştirakına dəstək vermək və bu sahədə onları təlimatlandırmaqdır.

Qəbələdə sahibkarlıq subyektlərinin çətinliklərinin öyrənilməsinə dair görüş keçirilmişdir

Rayonumuzda Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə Kənd təsərrüfatı məhsulu istehsal sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin çətinliklərinin öyrənilməsinə dair görüş keçirilmişdir. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin, Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin, Aqrar Kredit İnkişaf Agentliyinin, "Azəriqaz" İB-nin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri və sahibkarların iştirak etdiyi tədbirin keçirilməsində əsas məqsəd Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin çətinliklərinin öyrənilməsidir.

Ürəkləri riqqətləndirən sənət

Sentyabrın 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəyovun doğum günüdür. Həmin gün təkcə musiqi sevərlərin deyil, həm də bütün xalqımızın bayramıdır.Çünki elə bir azərbaycanlı tapmaq olmaz ki, onun qəlbində Üzeyir bəyə məhəbbət, onun ölməz sənətinə hörmət olmasın. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur.

Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda H.Z.Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Ü.Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq ədalət və ənənələri öz əksini tapmışdır.

Əsrin müqaviləsi - Neftçilər Günü

1994-cü il 20 sentyabr müstəqil Azərbaycan dövlətinin inkişafında tarixi, mühüm bir gün oldu. Həmin gün bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış kontraktlar imzalandı.Bu kontraktlar Azərbaycanın neft və yeni iqtisadiyyat tarixinin şanlı səhifəsini açdı.

Azərbaycan ilk dəfə idi ki, 6 ölkəni təmsil edən dünyanın 10 məşhur xarici neft şirkəti ilə belə böyük miqyasda saziş imzalayırdı .Bu saziş Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu, xarici sərmayədarların Azərbaycana axınını sürətləndirdi. "Əsrin müqaviləsi" həm də Azərbaycanda yeni neft-qaz kontraktlarının bağlanmasına güclü təkan verdi.

Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya

olunduqdan dərhal sonra neft-qaz əməliyyatlarının idarə edilməsi və əlaqələndirilməsi məqsədi ilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

1998-ci ildə Amerikada Azərbaycan, Türkiyə və Gürcüstan Prezidentləri "Bakı - Tbilisi - Ceyhan" Əsas ixrac Boru kəmərinin inşa edilməsi haqqında ilk saziş imzaladılar.

"Bakı-Tbilisi-Ceyhan" Əsas ixrac Boru kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir. Ümumi uzunluğu 1762 km olan kəmərin 443 kilometri Azərbaycan, 149 kilometri Gürcüstan, 1070 kilometri isəTürkiyə ərazisindən keçir. Kəmər ildə 50 milyon ton barel xam neft ötürmək qabiliyyətindədir. Heydər Əliyevin bu layihənin gerçəkləşdirilməsində əvəzsiz xidmətləri qiymətləndirilərək "Bakı-Tbilisi-Ceyhan" Əsas ixrac Boru kəmərinə onun adı verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin fərmanı ilə hər il sentyabrın 20-si "Neftçilər günü" kimi qeyd olunur.

"Narkomaniyaya yox deyək"

Rayon polis şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək" mövzusunda tədbir keçirilmişdir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində mərkəzin və rayon təhsil sektorunun nümayəndələrinin, gənclərin iştirakı ilə keçirilən tədbirdə öncə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov narkotik vasitələrin cəmiyyət üçün yaratdığı problemlər, törətdiyi fəsadlar, narkotik maddələrdən istifadənin risk amilləri, narkotik asılılığın formalaşma mərhələləri, psixoaktiv maddələrin xüsusiyyətləri və onların sağlamlığa zərərli təsirləri barədə geniş məlumat vermişdir. Çıxış edənlər gəncliyin fiziki və mənəvi sağlamlığı üçün ciddi təhlükə törədən narkomaniyanın mənfi nəticələrini və ölkənin hər yerində narkomaniyaya qarşı ciddi mübarizənin aparıldığını qeyd etmişlər. Sonda mövzu ətrafında iştirakçıların sualları cavablandırılmışdır.

Sertifikatlar təqdim edilmişdir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Peşə Təmayüllü siniflərin məzunlarına sertifikatlar təqdim edilməsi ilə bağlı keçirilən tədbirdə 2019-cu ildən respublikamızda həyata keçirilən "Peşə Təmayüllü Siniflərin Təşkili" layihəsinə uyğun olaraq 2021-2022-ci tədris ilindən Vəndam qəsəbə 1 saylı tam orta məktəbində fəaliyyət göstərən Peşə Təmayüllü sinfin məzunlarına İT mütəxəssisi köməkçisi və Dərzi köməkçisi ixtisasları üzrə ilk peşə təhsilini başa vurduqları üçün sertifikatlar təqdim edilmişdir. Çıxış edənlər layihənin əhəmiyyətindən, dövlətin gənclərə göstərdiyi diqqət və qayğıdan danışmış, məzunlara işlərində uğurlar arzulamışlar.